1_Layout 1 29.04.2025 11:29 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 8 (696)

30 aprel 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MİLLİ MARAQLARI QƏTİYYƏTLƏ TƏMİN EDƏN MÜSTƏQİL SİYASƏT

## Bunun nəticəsidir ki, Azərbaycan nüfuzlu və ehtiram göstərilən dövlətlər sırasındadır

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "Milli maraqları qətiyyətlə təmin edən müstəqil siyasət" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Dövlətin beynəlxalq münasibətlər sistemindəki yerini, rolunu və nüfuzunu şərtləndirən əsas amillərdən biri onun həyata keçirdiyi siyasi kursun məzmunudur. Bu kurs müstəqil olanda, dövlətin milli mənafelərini təmin edəndə, xarici direktivlər əsasında formalaşmayanda qlobal səviyyədə də ehtiramla qarşılanır. Başqalarının kölgəsində və yedəyində sürünənlərin isə heç bir yerdə hörməti olmur.

### İlham ƏLİYEV: "Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik"



Olduqca qürurvericidir ki, Azərbaycan dünyada özünün yolu, qətiyyətli və müstəqil siyasəti, istənilən regional və qlobal məsələ ilə bağlı öz mövqeyi olan dövlət kimi tanınır. Bu barədə çoxsaylı misal çəkmək olar. Hələ illər öncə Azərbaycanın Xəzərdən hasil etdiyi nefti alternativ marşrutla dünya bazarlarına çıxarması müstəqil enerji siyasətinin təcəssümü idi. Bu siyasətin başqa bir göstəricisi 2020-ci ilin sonundan başlayaraq Azərbaycanın təbii qazının birbaşa Avropa bazarlarına çatdırılmasıdır. Eləcə də Azərbaycanın nəqliyyat dəhlizləri ilə bağlı rəqabətdə qazandığı uğurlar da ölkəmizin qətiyyətli siyasətinin təzahürüdür.

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsində torpaqlarını işğaldan azad etməsi, 2023-cü ildə Qarabağda erməni separatizminə son qoyması da Azərbaycanın yürütdüyü müstəqil və qətiyyətli siyasətinin nəticəsidir. Bu siyasət yalnız işğala son qoymadı. Bu siyasət həm də Fransanın və Qərbin digər siyasi mərkəzlərinin bütün təhdid və təzyiqlərini qətiyyətlə dəf etdi, onların planlarını iflasa uğratdı. Torpaqlarımızın işğaldan azad edilməsi isə müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi olmaqla yanaşı, Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəltdi, mövqelərini möhkəmləndirdi.

Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan müstəqil və ləyaqətli siyasət yürüdür: "Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir".

Müstəqil siyasət həm də dövlətə rəhbərlik edən şəxsin siyasi nüfuzunu müəyyən edən meyarlardan biridir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın nüfuzlu dövlət başçıları ilə bir cərgədə dayanan liderdir. Dövlətimizin başçısının qlobal və regional məsələlərə dair mövqeyi, problemlərin həlli ilə bağlı yanaşmaları hər zaman diqqət mərkəzindədir. Bu da onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin edərək dünya çapında da böyük ehtiramla izlənilir. Əlamətdar hadisələrlə bağlı Prezident İlham Əliyevə ünvanlanan məktubların məzmunu da dövlətimizin başçısına olan yüksək ehtiramın göstəricisidir.

### Mükəmməl xarici siyasət kursunun təntənəsi

Xarici siyasətdə də müstəqilliyin təmin olunması ölkənin beynəlxalq münasibətlərdəki yerinin və rolunun qiymətləndirilməsində əsas meyarlardan biridir. Böyük məmnunluqla qeyd etməliyik ki, Azərbaycanın xarici siyasət kursu respublikamızın milli prioritetlərini layiqincə təmin edir. Azərbaycan dünyanın hər bir siyasi qütbü ilə yüksək əlaqələrə malikdir. Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənədlər imzalanıb.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri də respublikamızın yürütdüyü mükəmməl xarici siyasət kursunun və beynəlxalq münasibətlər sistemindəki güclü mövqelərinin nümayişi oldu. Prezident İlham Əliyev bundan əvvəl də Çinə dövlət, rəsmi və işgüzar səfərlər etmişdir. Öncə onu qeyd edək ki, dövlət səfəri ölkə rəhbərlərinin səfərləri sırasında birinci yerdə dayanır. Belə ki, dövlət səfəri məzmununa görə ölkələr arasındakı əlaqələrin ən yüksək həddini ifadə edir. Bu mənada Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə reallaşan bu ali səfər Prezident İlham Əliyevə və Azərbaycana olan yüksək ehtiramdan xəbər verir.

Qeyd edək ki, Azərbaycan-Çin münasibətləri dostluğa, qarşılıqlı etimada və çoxşaxəli tərəfdaşlığa əsaslanmaqla, yüksək inkişaf dinamikası ilə seçilir. Hər iki dövlət həmişə bir-birinin milli maraqlarına qarşılıqlı dəstək nümayiş etdiriblər. Belə ki, Azərbaycan Çinin "Vahid Çin" siyasətini hər zaman dəstəkləyib. Çin isə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına daim dəstək nümayiş etdirib. Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü isə ikitərəfli münasibətlərin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb və Azərbaycan bu məsələdə Çinin əsas tərəfdaşlarından biridir.

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri iki dövlət arasındakı siyasi-iqtisadi gündəliyi daha da zənginləşdirdi. Çin Xalq Respublikasının Sədri Si Cinpinin Prezident İlham Əliyevlə görüşdə səsləndirdiyi fikirlər bir daha iki dövlət və onların rəhbərləri arasındakı dostluğu nümayiş etdirdi.

Bu səfər zamanı imzalanan sənədlər iki dövlət arasındakı əlaqələrin hüquqi bazasını daha da gücləndirdi. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə Azərbaycanla dünyanın supergüclərindən biri olan Çinin strateji tərəfdaşlığını yeni mərhələyə yüksəltdi.

Bütövlükdə bu səfər Azərbaycanın mükəmməl xarici siyasət kursunun Prezident İlham Əliyevin və müdrik diplomatiyasının təntənəsinə çevrildi. Bir daha təsdiq olundu ki, Azərbaycan beynəlxalq münasibətlərdə ən yüksək ehtiram göstərilən dövlətlərdəndir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB



Aprelin 25-də Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının qorunması, cinayət işlərinin istintaqı və təhqiqat zamanı qanunçuluğa riayət edilməsi, polis-media əlaqələrinin təşkili sahəsində görülən işlərin vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2025-ci ilin I rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 7.829 cinayətin 87 faizi açılıb. Cinayətlərin dinamikasında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 12,3 faiz və ya 1.101 fakt azalma qeydə alınıb.

Ağır və xüsusilə ağır cinayətlər, şəxsiyyət əleyhinə olanlar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, hədə-qorxu ilə tələbetmələr, xuliqanlıqlar, ictimai yerlərdə, qrup halında və ailə münaqişəsi zəminində baş verənlər, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən və odlu silahın tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, oğurluqların, dələduzluqların, soyğunçuluqların, hədə-qorxu ilə tələbetmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton 662 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 333 kiloqramdan çox narkotik vasitə çıxarılıb. Əllərdə qanunsuz saxlanılan 2.309 odlu silah aşkarlanıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi, o cümlədən müraciətlərə baxılması üzrə fəaliyyətin nəticələrinin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş maddi ziyanın 96 faizinin istintaq prosesində ödənildiyini nəzərə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsini tələb edib.

Bütün ərazi polis orqanlarının rəislərindən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasının zəruriliyini və müvafiq sahədə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Törədilmiş əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşmasında polis orqanlarının istintaq və təhqiqat qurumlarının mühüm rolunu, bu istiqamətdə işin düzgün təşkilinin cinayətlərin açılmasında və araşdırılmasında, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasında, vurulmuş maddi ziyanın ödətdirilməsində əhəmiyyətini də qeyd edib. Hər bir müstəntiqin və təhqiqatçının əsas vəzifəsinin insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu vurğulayıb və aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Ərizə və şikayətlərə baxılması, eləcə də qanunçuluğun qorunması vəzifələrinin icrası kimi vacib məsələlərə toxunaraq bu istiqamətlərdə görülən işlərin xüsusi nəzarətdə saxlanıldığını, müraciətlərin obyektiv və həssaslıqla araşdırıldığını, qaynar xətlərə daxil olmuş və sosial şəbəkələrdə yayımlanmış məlumatlara çevik reaksiya verildiyini, bütövlükdə əldə edilmiş nəticələrin müsbət olduğunu bildirib.

Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin, o cümlədən əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən daha 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını diqqətə çatdırıb. Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə mane olan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını, insanların həyat və sağlamlığının yol-nəqliyyat qəzalarından qorunması işinin effektivliyinin artırılmasını tələb edib, habelə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində qarşıda duran vəzifələri müəyyən edib.

Yekunda polis-media əlaqələrinin vəziyyətinə toxunaraq Daxili İşlər Nazirliyinin mediaya ən açıq qurumlardan biri olduğunu qeyd edərək Mətbuat xidmətinin fəaliyyətinin daha səmərəli təşkili, informasiya məkanında rolunun artırılması, görülən işlər və həyata keçirilən tədbirlər barədə məlumatların ictimaiyyətə operativ çatdırılması üçün tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.04.2025 12:17 Page 1



# HƏRBİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Aprelin 24-də Daxili Qoşunların Baş İdarəsində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə Hərbi Şuranın iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti, tərbiyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr döyüş hazırlığının artırılmasında əsas istiqamətlərdən biridir.




Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müstəqilliyinin, iqtisadi və hərbi qüdrətinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun artırılması istiqamətində mühüm addımlar atılıb, ordu quruculuğu prosesi uğurla davam etdirilib, bütün kateqoriyalı hərbi qulluqçuların sosial rifahının yüksəldilməsi üçün vacib sərəncamlar imzalanıb.

Sonra Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti hər zaman olduğu kimi dövlətə, dövlətçiliyə sadiq qalaraq respublikada, o cümlədən işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında yüksək hərbi intizam və peşəkarlıq nümayiş etdirib.

Qeyd edilib ki, şəxsi heyətlə tərbiyə işi qanunçuluğun, hərbi intizamın möhkəmlənməsinə, qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsinə, hərbi qulluqçuların Azərbaycan Respublikasının qanunlarına sözsüz əməl edilməsi ruhunda tərbiyə olunmasına və sağlam mənəvi-psixoloji mühitin yaradılmasına yönəlib. Bu məqsədlə hərbi hissələrdə keçirilən tərbiyə işi tədbirləri nəzarətə götürülüb, hərbi intizamın vəziyyəti üzrə təhlillər aparılıb, fəaliyyət istiqamətləri üzrə müvafiq tövsiyələr verilib.

Bununla yanaşı, Daxili Qoşunlarda cinayət, hadisə və kobud intizam pozuntularına yol verilməməsi, neqativ halların vaxtında qarşısının alınması məqsədilə müvafiq göstərişlərin hazırlanaraq hərbi hissələrə göndərildiyi və icrasının nəzarətdə saxlanıldığı vurğulanıb.

Həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyəti və antiterror tədbirlərinin mahiyyəti şəxsi heyət arasında geniş təbliğ edilib. Daxili Qoşunların şəhidlərinin və Vətən müharibəsi iştirakçılarının ictimaiyyət arasında tanıdılması məqsədilə hazırlanmış məqalələr kütləvi informasiya vasitələrində işıqlandırılıb, “Əsgər” qəzetinin bütün saylarında vətənpərvərlik mövzusunda maarifləndirici materiallar dərc olunub. Azərbaycan Dövlət Televiziyası və özəl kanallarla, rəsmi dövlət qəzetləri ilə müntəzəm olaraq əlaqə saxlanılıb, hərbi hissələrdə çəkilişlərin aparılması təşkil edilib.



Şəhid ailələrinin və müharibə veteranlarının diqqət və qayğı ilə əhatə olunması daim nəzarətdə saxlanılıb, problemlərinin həlli istiqamətində zəruri tədbirlər görülüb.

Məruzəçi əlavə olaraq bildirib ki, respublikada baş verən ictimai-siyasi hadisələr, dövlət səviyyəli tədbirlər daim diqqət mərkəzində saxlanılıb, Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının, zəngin siyasi irsinin öyrənilməsi təmin edilib, mühüm tədbirlərdə və yekunlarda dövlət başçısının çıxışları ictimai-siyasi hazırlıq məşğələlərində və digər tərbiyə işi tədbirlərində geniş istifadə olunub.

Məruzədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş aidiyyəti dövlət proqramlarının tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı şəxsi heyət arasında maarifləndirmə işinin aparıldığı, gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, sağlam həyat tərzi keçirmələri, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirildiyi bildirilib.

Çıxışının sonunda general-mayor İ.Muradov Daxili Qoşunların şəxsi heyətinin fəaliyyət istiqamətləri üzrə nailiyyətlərin əldə olunması və mövcud nöqsanların aradan qaldırılmasına qətiyyətlə çalışacağına, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacağına əminliyini ifadə edib.

Şuranın iclasında mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə hərbi hissə komandirlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verərək, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, həmçinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə ictimai asayişin və sabitliyin keşiyində mətinliklə dayanacağına əminliyini ifadə edib, hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# VETERANLARIN ÜMUMİ YIĞINCAĞI KEÇİRİLİB

Aprelin 19-da 25031 saylı hərbi hissənin klubunda Daxili Qoşunların sıralarında xidmət keçmiş, hazırda istefada və ehtiyatda olan veteranlarımızın növbəti ümumi yığıncağı keçirilib. Ümumi yığıncaqda daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.



General-mayor İ.Muradov tədbiri açaraq iştirakçıları komandanlıq adından salamlayıb. O, ümumilikdə veteranlarla keçirilən hər bir görüşün qoşunların həyatında əlamətdar hadisə olduğunu vurğulayıb. Veteranlar şurasının Daxili Qoşunların tərkibində 2005-ci ildən fəaliyyət göstərdiyini, ötən dövrdə layiqli yol keçdiyini deyib. Qeyd olunub ki, şura Daxili Qoşunlarla veteranlar arasında mənəvi bağlantının möhkəmləndirilməsinə əhəmiyyətli töhfəsini verib. Bununla yanaşı, şura şəxsi heyətin vətənpərvərlik tərbiyəsi işində həmişə fəal rol oynayıb. Veteranların zəngin həyat, xidmət və döyüş təcrübəsindən faydalanmağın hər zaman öz aktuallığını qoruyub saxladığı bildirilib.

Nəzərə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev, o cümlədən daxili işlər naziri və Daxili Qoşunların komandanlığı tərəfindən veteranlar daim hörmət və qayğı ilə əhatə olunublar, onların müraciətlərinə diqqətlə yanaşılıb, qaldırdıqları məsələlərlə əlaqədar gərəkli tədbirlər görülüb.

Ötən müddətdə Veteranlar şurasının tərkibinin əhəmiyyətli dərəcədə genişləndiyini söyləyən komandan müavini veteranların yaşlı və gənc nəslinin bir təşkilatda birləşməsinin mühüm mənəvi amil olduğuna diqqət çəkib.

Məlumat verilib ki, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 17 aprel 2025-ci il tarixli müvafiq əmri ilə Veteranlar şurasının yeni əsasnaməsi təsdiq olunub. Yeni əsasnamədə müasir dövrün çağırışları, veteranların təklifləri nəzərə alınıb, təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi üçün konkret istiqamətlər müəyyən edilib. Həmçinin Daxili Qoşunlarda veteranlarla işin səmərəli təşkilinə dair müvafiq göstərişin imzalandığı, hər il aprel ayının üçüncü həftəsinin şənbə günü veteranların iştirakı ilə “Açıq qapı günü”nün keçirilməsi barədə qərar qəbul edildiyi yığıncaq iştirakçılarının nəzərinə çatdırılıb.

Sonra DQBİ-nin şəxsi heyət üzrə idarə rəisinin müavini-mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Zamin Rəsulov Veteranlar şurasının yeni əsasnaməsinin məzmunundakı dəyişikliklər barədə veteranları məlumatlandırıb.

Ümumi yığıncaqda açıq və şəffaf səsvermə yolu ilə Veteranlar şurasının idarə heyətinin 7 nəfərdən ibarət yeni tərkibi müəyyənləşib. İdarə heyətinin ayrı təşkil olunan iclasında isə Şirin Xəlilov Veteranlar şurasının sədri və Səfxan Bayramov sədr müavini seçiliblər. Yeni üzvlər yığıncaq qarşısında çıxış edərək göstərilən etimada və dəstəyə görə minnətdarlıqlarını bildirərək, öz fəaliyyətlərində veteranların mənafelərini qoruyacaqlarını, təşkilatın işinin canlandırılması üçün əzmlə çalışacaqlarını deyiblər.

Veteranlar yığıncaqda şuranın vəzifələrindən irəli gələn, habelə sosial məsələlərlə bağlı təkliflərlə çıxış ediblər. Onların sualları yerindəcə cavablandırılıb.

Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İ.Muradov yığıncağa yekun vuraraq şuranın işinin düzgün və məqsədyönlü təşkili üçün komandanlıq tərəfindən bundan sonra da lazımi dəstək göstəriləcəyini vurğulayıb. Veteranların xidmət və döyüş yolunun şəxsi heyətə örnək olduğunu söyləyərək, onlara ictimai fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda hərbi hissənin klubu önündə veteranlarla birlikdə xatirə şəkli çəkilib.

**Yalçın Abbasov**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ HƏRBİ HİSSƏ İLƏ TANIŞ OLUBLAR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov və Murad Babayev aprelin 11-də 25031 saylı hərbi hissədə olublar.

İlk olaraq, hərbi hissənin ərazisi ilə tanış olan nümayəndələr daha sonra komendant bölüyünə, yeməkxanaya, tibb məntəqəsinə, ərzaq anbarına və əsgər mağazasına ümumi baxış keçiriblər. Əsasən komendant bölüyünün şəxsi heyətinə insan hüquqları, eləcə də hərbi qulluqçuların hüquqları, Ombudsmanın fəaliyyət istiqamətləri barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.



Sonda qurumun nümayəndələri əsgər yeməkxanasında şəxsi heyətlə birgə nahar ediblər.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların digər hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏ KOMANDİRLƏRİNİN TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ MÜAVİNLƏRİ İLƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Aprelin 17-18-də 25031 saylı hərbi hissədə Hərbi İnstitutun prorektoru və hərbi hissə komandirlərinin tərbiyə işləri üzrə müavinləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışa ümumilikdə 19 nəfər tərbiyə işləri üzrə müavin cəlb olunub.



Məşğələ cədvəlinə uyğun olaraq, Daxili Qoşunlarda mənəvi-psixoloji təminatın təşkili üzrə daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri çatdırılıb, hərbi hissələrdə tərbiyə işinin, hərbi intizamın və təhqiqatın vəziyyəti təhlil olunub, qeyd edilən istiqamətlər üzrə mövcud nöqsanların aradan qaldırılmasında hissə komandanlıqlarının fəaliyyəti, o cümlədən qanun pozuntularının profilaktikası, onların aradan qaldırılması yolları, həvəsləndirmələrin tətbiqi, cəzaların verilmə və götürülmə qaydaları barədə məlumat verilib.

Toplanışda Daxili Qoşunların Veteranlar şurasının üzvü ehtiyatda olan polkovnik-leytenant Səfxan Bayramovun iştirakı ilə “Daxili Qoşunlarda Veteranlar şurasının fəaliyyəti. Hərbi hissələrdə veteranlarla işin təşkili” mövzusunda metodiki və praktiki məşğələ keçirilib.

Metodiki-təlim toplanışında iştirak edən daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov tərbiyə işləri üzrə müavinlərlə fərdi söhbət aparıb, onlara hərbi intizamın qorunub saxlanılması barədə müvafiq tapşırıqlar verib, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının tələb və tövsiyələrini çatdırıb.

Sonda daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri üzrə məqbullar qəbul edilib.

**kapitan Şahin Cəfərzadə**

# XÜSUSİ TƏYİNATLI VƏ XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ DƏSTƏLƏRİNİN DÖYÜŞ HAZIRLIĞI YOXLANILIB

Aprel ayının 2-dən 4-dək Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi dəstələrində idarəetmənin, döyüş hazırlığının və döyüş təliminin vəziyyəti yoxlanılıb. Fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq, xüsusi bölmələrə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi, bu istiqamətdə şəxsi heyətin bilik və bacarığı, hərbi qulluqçuların silahsız özünümüdafiə və əlbəyaxa döyüş fəndlərinin tətbiqi üzrə bacarıqları, eləcə də xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi dəstələrinin bölmələrinin həyəcan siqnalına gətirilərək silahlanması, ekipirovkası, texnikanın vəziyyəti, hərbi qulluqçuların və maddi vəsaitlərin avtomobillərdə yerləşməsi yoxlanılıb.






Xüsusi bölmələrdə iş zamanı xüsusi təyinatlı dəstənin heyəti ilə Daxili Qoşunların taktiki hazırlığı üzrə “Xüsusi əməliyyatın təşkili və keçirilməsində komandirin işi”, atəş hazırlığı üzrə “Bölmə ilə atıcılıq məşqləri, döyüş atışlarının təşkili və keçirilməsi metodikası”, xüsusi taktiki hazırlıq üzrə “Döyüş meydanında irəliləmə, qəflətən atışın açılması zamanı atıcının və heyətin fəaliyyəti”, xüsusi təyinatlı dəstənin şəxsi heyəti ilə fiziki hazırlıq üzrə “Kompleks və xüsusi məşqlərin yerinə yetirilməsi” mövzusunda məşğələlər keçirilib.

Bundan əlavə, hərbi hissədə döyüş hazırlığının yüksəldilməsində, qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi zamanı tabelikdə olan bölmələrin idarə edilməsində komandir heyətinə köməklik göstərilib.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 29.04.2025 11:30 Page 1



# 33 İL ÖNCƏ HƏSƏNRİZDƏ ŞƏHİD OLAN ƏSGƏRİN NƏŞİNİN QALIQLARI TORPAĞA TAPŞIRILIB



Birinci Qarabağ müharibəsi zamanı erməni işğalçılarına qarşı döyüşlərdə itkin düşmüş hərbi qulluqçularımız olub. Onların arasında ön cəbhədə şəhadətə ucalaraq meyitləri işğal olunmuş ərazilərdə qalan döyüşçülərin taleyinə uzun illər aydınlıq gətirmək mümkün olmayıb. 2014-cü ildən etibarən qeyd edilən hərbçilərin ailə üzvlərindən axtarış işlərinin aparılması üçün vacib sayılan bioloji nümunələrin götürülməsinə və toplanılaraq saxlanılmasına başlanılıb.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində torpaqlarımızın işğalına son qoyulması itkin düşmüş vətəndaşlarımızın düşmən tərəfindən basdırıldıqları kütləvi məzarlıqların tapılmasına real şərait yaradıb. 2021-ci ildən bu günədək Qarabağ və Şərqi Zəngəzur bölgələrinə daxil olan ayrı-ayrı rayonlarda aşkarlanan kütləvi məzarlıqlardan xeyli sayda soydaşımızın nəşinin qalıqları ekshumasiya (dəfn yerindən götürmə) edilib. Bu qalıqlar üzərində ekspertiza müayinələri vasitəsilə kimə məxsus olduqları müəyyənləşdirilib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının açıqladığı son məlumata görə, daha üç nəfər itkin düşmüş vətəndaşımızın nəşinin qalıqlarının kimliyi eyniləşdirilib. Həmin şəxslərdən biri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu olmuş əsgər Mehdiyev Münasib Namaz oğludur.

O, 1973-cü il avqustun 26-da Samux rayonunun Qovlarsarı kəndində doğulub. İki qardaşı və bacısından yaşca kiçik olub. Doğma kəndindəki orta məktəbi bitirib. Hərbi xidmətə yollananadək ev təsərrüfatında çalışıb.

1992-ci ildə DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 17072 saylı hərbi hissədə xidmət keçərək ön cəbhəyə göndərilib. Ağdərə rayonu ərazisində döyüş tapşırıqlarını yerinə yetirib. 1992-ci il iyulun 19-da rayonun Həsənriz kəndi (həmin vaxt Aterk adlanırdı) uğrunda vuruşaraq itkin düşüb. 1992-ci ildə Həsənriz kəndində şəhid olmuş 17072 saylı hərbi hissənin hərbi qulluqçularından bir qisminin ermənilər tərəfindən yandırılmış nəşinin qalıqları ərazidən götürülərək Bakının Dağüstü parkındakı Şəhidlər xiyabanında yerləşən qardaşlıq məzarında torpağa tapşırılıb. Qardaşlıq məzarının üzərində əvvəl quraşdırılmış mərmər lövhəyə (hazırda yerində yeni abidə yaradılıb) həkk edilən 38 nəfər hərbçinin siyahısında Münasibin də adı olub. Ancaq onun nəşinin qalıqlarının bu məzarda olması ehtimalı özünü doğrultmayıb.



Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli müvafiq Fərmanı ilə əsgər M.Mehdiyev ölümündən sonra “Fəxri fərman”la təltif edilib.

1997-ci il aprelin 22-də Samux Rayon Məhkəməsinin əsgər M.Mehdiyevin döyüş bölgəsində xəbərsiz itkin düşməsi faktı nəzərə alınaraq, ölmüş elan edilməsi barədə müvafiq qətnaməsi qüvvəyə minib. 1997-ci il mayın 15-də ailəsinə ölüm haqqında şəhadətnamə verilib.

Uzun illər ərzində şəhidin doğmalarının gözləri yollardan yığılmayıb, ondan bir xəbər alacaqlarını həsrətlə gözləyiblər.

2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatının nəticəsi olaraq Ağdərə rayonunun Həsənriz kəndi də işğaldan azad olunub. “Dəmir yumruq” zərbəsi ilə şəhidlərimizin qisası alınıb.

2025-ci ilin aprel ayının əvvəlində Mehdiyevlər ailəsinə şəhidin nəşinin qalıqlarının Ağdərə rayonunda tapılması barədə məlumat çatdırılıb. Aprelin 18-də döyüşçünün nəşinin qalıqları Qovlarsarı kəndinin qəbiristanlığında hərbi ehtiramla torpağa tapşırılıb. Dəfn mərasimində rayon rəhbərliyi, dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının təmsilçiləri, eləcə də ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, veteranlar, hərbçilər, kənd sakinləri və şəhidin doğmaları iştirak ediblər. Bu günü görmək döyüşçünün valideynlərinə qismət olmayıb, onlar ürəklərində övlad acısı ilə dünyadan köçüblər.

Vətən uğrunda canını fəda edən əsgər kimi Münasib heç vaxt unudulmayacaq, qəlblərdə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# DAXİLİ QOŞUNLARIN HƏRBİ İNSTİTUTUNDA TƏLİM-TƏDRİS PEŞƏKARLIQLA HƏYATA KEÇİRİLİR

Daxili Qoşunların Hərbi İnstitutu ali xüsusi-hərbi təhsilli kadrların hazırlanmasını, zabitlərin ixtisaslarının artırılmasını və elmi-tədqiqat işlərinin aparılmasını uğurla həyata keçirir. Burada tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, eyni zamanda daxili işlər naziri və daxili qoşunların komandanının əmr və direktivlərinin tələblərinə uyğun olaraq təşkil olunur.



Təlim-tədrisin planlaşdırılması zamanı kursantlara Daxili Qoşunların ehtiyaclarına və dövrün tələblərinə uyğun təhsilin verilməsi və qazandıqları bilikləri nə vaxt, harada, necə tətbiq edəcəkləri praktiki olaraq göstərilir, onların savadlı və bacarıqlı hərbi qulluqçu kimi hazırlanmalarına xüsusi diqqət yetirilir, sistemli bir şəkildə fərdi və qrup halında çalışmalar təşkil edilib keçirilir.

Bunun nəticəsidir ki, Hərbi İnstitutun tədris bölükləri intizamlı, savadlı kursantları ilə hər zaman fərqlənir. Hərbi İnstitutun ümumi işlər üzrə prorektoru polkovnik Eldəniz Abbasov qeyd etdi ki, baş leytenant Firqət Əzizlinin komandiri olduğu zabit hazırlayan tədris bölüyü bu baxımdan səciyyəvidir.

Polkovnik E.Abbasov institutda keçirilən tədris prosesinin əsas məqsədinin hərbi-nəzəri və hərbi-praktiki biliklərə, intellektual təfəkkürə malik, ali təhsilli zabit kadrları hazırlamaq olduğunu bildirdi. O, təlim-tədrisin peşəkar, savadlı müəllim heyəti tərəfindən aparıldığını diqqətə çatdırdı. Söylədi ki, tədris Hərbi İnstitutun tədris şöbəsi tərəfindən hazırlanan və institutun rektoru tərəfindən təsdiq edilmiş məşğələ cədvəlinə əsasən həyata keçirilir: “Qalx” komandasından sonra səhər gimnastikası yerinə yetirilir. Ardınca səhər yeməyi və dərsə hazırlıq olur. Kursantlar məşğələ cədvəlinə uyğun olaraq, saat 08:30-dan başlayaraq tədris məşğələlərinə cəlb olunurlar. Müəllim heyətinin rəhbərliyi ilə məşğələlər gündə 6 saat, akademik saat isə 45 dəqiqə olmaqla keçirilir. Hər tədris məşğələsinin arasında müəyyən edilmiş zaman çərçivəsində fasilələr olur. “Daxili Qoşunların taktiki hazırlığı”, “Topoqrafiya”, “Hərbi mühəndis hazırlığı”, “Mülki müdafiə və tibbi biliklərin əsasları”, “İnformatika və təhsildə İKT” və s. kimi fənlər kafedraların peşəkar hərbi, həmçinin mülki müəllim heyəti tərəfindən tədris olunur”.



Nahar fasiləsi bitdikdən sonra isə 1 saat müddətində kursantların istirahəti təşkil olunur, sərbəst iş saatları keçirilir. Kursantlar taqım komandirlərinin rəhbərliyi ilə növbəti tədris gününə hazırlıq işləri görürlər.

Bundan əlavə, şənbə günü 2 saat ərzində fiziki hazırlıq kafedrasının müəllim heyətinin nəzarəti altında ümumi fiziki hazırlıq məşğələləri təşkil olunur. Park-təsərrüfat gününün planına əsasən, silah və texnikaya qulluq, eləcə də digər aidiyyəti tədbirlər keçirilir. Bazar günü isə kursantlar təsdiq olunmuş plana uyğun olaraq fəaliyyətlərini həyata keçirirlər.



Baş leytenant Firqət Əzizli vurğuladı ki, təlim-tədris prosesi 1 və 2-ci semestr olmaqla, planlaşdırma bölməsi tərəfindən hazırlanır, dərslərin gedişatına, həftəlik məşğələ cədvəllərinin tərtib olunmasına nəzarət edilir: “Birinci semestrin yekununda bütün kurslar üzrə keçirilmiş fənlərdən test və praktiki üsulla imtahanlar keçirilir. Test üsulu ilə imtahan verilməsi ilə yanaşı, kursantlar Daxili Qoşunların Xızı rayonunda yerləşən Təlim Mərkəzində praktiki təlimlər üzrə də imtahan olunurlar. İmtahan cədvəllərinin hazırlanması, imtahanların keçirilməsi, nəticələrin hesablanması və qiymətləndirilməsi Hərbi İnstitutun qiymətləndirmə şöbəsi tərəfindən aparılır. İmtahanlarda daha yüksək bal toplayan kursantlar mükafatlandırılırlar”.

Həmçinin kursantlar gələcək ixtisaslarına uyğun vəzifələrdə xidmət təcrübəsi əldə etmək üçün qoşun təcrübəsinə cəlb olunurlar. Qoşun təcrübəsi Hərbi İnstitutun tədris planına əsasən, Daxili Qoşunların hərbi hissələrində keçirilir. Qoşun təcrübəsi kursantların Hərbi İnstitutda aldıqları nəzəri biliklərin möhkəmləndirilməsində və öz ixtisaslarına uyğun praktiki vərdişlərin qazanılmasında əsas tədris fəaliyyətidir.

Bundan əlavə, kursantların nəzəri biliklərinin möhkəmləndirilməsi, praktiki vərdişlərinin artırılması, döyüş şərtlərinə yaxın şəraitlərdə bölmələrin idarə edilməsi üsullarına yiyələnmələri, həmçinin təhkim olunmuş silah və texnikadan istifadə şərtlərinin mükəmməl mənimsənilməsini təmin etmək məqsədilə praktiki təlimlər keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri, eləcə də təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, Hərbi İnstitutda təcrübəli müəllim heyəti tərəfindən həyata keçirilən təlim-tədris prosesi, o cümlədən kursantların imtahanda əldə etdikləri nailiyyətlər gələcəkdə qoşunların peşəkar, Vətənə, dövlətə, dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük keyfiyyətlərinə malik, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrin tələblərinə sözsüz əməl etməyə qadir və bunları şəxsi heyətə aşılamağı bacaran zabit heyətilə komplektləşdirilməsinə zəmin yaradır.

**kapitan Şahin Cəfərzadə**

# “ŞƏXSİ HEYƏT ARASINDA SAĞLAM MƏNƏVİ-PSİXOLOJİ DURUMUN FORMALAŞMASI VACİB MƏSƏLƏLƏRDƏNDİR”

17071 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirməsi bunu deməyə əsas verir.



17071 saylı hərbi hissənin komandiri polkovnik Rüstəm Dəmirov bildirdi ki, dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın, eləcə də gündəlik olaraq xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılması olduqca önəmlidir. Vurğuladı ki, dəstə fəaliyyətini daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edir: “Tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq məşğələləri təşkil olunur. Həmçinin kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması mövzularında keçirilən məşğələlərdə xidməti fəaliyyətin xüsusiyyətlərinin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir.





Təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, hazırlıqlarına ciddi fikir verilir”.

Komandir onu da əlavə etdi ki, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli, tam fərdi qaydada mənimsənilməsi müsbət nailiyyətlərin, eləcə də qabaqcıl təcrübənin əldə olunmasına təkan verir.

Bununla yanaşı, gündəlik olaraq dəstənin şəxsi heyətinin tam tərkibdə xidmətdə olması yoxlanılır, tərtib edilən cədvələ əsasən, məşğələlər vaxtında keçirilir, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Nəzəri biliklərin mənimsənilməsi və praktiki fəaliyyət yoxlanılır, daxili qayda-qanuna ciddi riayət olunması nəzarətdə saxlanılır.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitələrin və silahların, texnikanın vəziyyətinə xüsusi diqqət yetirilir.

Polkovnik R.Dəmirov şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafını, xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların kollektivə uyğunlaşmalarını vacib məsələlərdən biri kimi dəyərləndirdi. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Şahin Rzayevin fəaliyyətini müsbət xarakterizə etdi.

Mayor Ş.Rzayev dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş leytenant Seyidməzahim Zeynalovun, gizir Tural Muradovun və baş əsgər Elvin Məsmalıyevin adlarını çəkdi.

Hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərən dəstənin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, habelə qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən fərqlənəcəyinə əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 29.04.2025 11:32 Page 1



# HƏRBİ İNSTİTUTDA ELMİ SEMİNAR KEÇİRİLİB

Aprel ayının 21-də Daxili Qoşunların Hərbi İnstitutunda tanınmış filosof, sosioloq, Sosiologiya Akademiyasının rəhbəri, fəlsəfə üzrə elmlər doktoru Mail Yaqubun iştirakı ilə “Liderlik və kütlə davranışı: şüurun idarəsi və emosional səfərbərlik” mövzusunda elmi seminar keçirilib.



Tədbiri giriş sözü ilə Hərbi İnstitutun hərbi-elmi şöbə rəisinin müavini polkovnik-leytenant Vüqar Şirinov açaraq seminarın məqsədini iştirakçılara çatdırıb, mövzunun aktuallığını vurğulayaraq qonağı təqdim edib. Daha sonra Mail Yaqub çıxış edərək liderlik anlayışının psixoloji və sosioloji aspektlərini, kütlə psixologiyasının tarixi inkişafı və müasir cəmiyyətlərdə təzahür formaları haqqında geniş izah verib.

Seminarda liderlərin emosional səfərbərlik vasitəsilə kütlələri necə yönləndirdiyi, kütlə içində fərdi şüurun necə dəyişdiyi və yönləndirmə texnikalarının ictimai təhlükəsizlik, idarəetmə və təbliğat sahələrində necə tətbiq oluna biləcəyi elmi əsaslarla izah olunub. M.Yaqub çıxışı zamanı həm tarixi lider nümunələrinə, həm də müasir dövrdə sosial şəbəkələr vasitəsilə formalaşan virtual kütlə davranışına dair maraqlı analizlər təqdim edib.

Çıxışdan sonra seminar interaktiv formada davam etdirilib. Kursantlar və komandir heyəti fəal şəkildə suallar ünvanlayıblar, konkret situasiyalar və müşahidələr üzərindən müzakirələr aparılıb. Xüsusilə gənclərdə liderlik bacarığının formalaşmasında düşüncə tərzi, bədən dili və emosional zəka kimi faktorların əhəmiyyəti seminarın əsas mövzusu olub.

Tədbirin sonunda M.Yaquba Daxili Qoşunların Hərbi İnstitutu adından xatirə hədiyyəsi təqdim olunub, fotoşəkillər çəkilib. Seminar iştirakçıların intellektual marağını cəlb edib, analitik düşüncə və liderlik bacarığının inkişafına dəstək verən faydalı bir görüş kimi yadda qalıb.

Seminar təşkilati və məzmun baxımından yüksək səviyyədə keçirilib, kursantlar və komandir heyəti üçün əhəmiyyətli elmi-praktik töhfə verib.

**Hərbi-elmi şöbə rəisinin müavini**
**polkovnik-leytenant Vüqar Şirinov**

*NÜMUNƏVİ XİDMƏT*

# PEŞƏSİ İLƏ FƏXR EDƏN HƏRBİ QULLUQÇU

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən gizir Tofiq Məmmədov vəzifələrini məsuliyyətlə, vicdanla yerinə yetirir. Seçdiyi peşə ilə hər zaman fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.



O, 1993-cü ilin iyun ayının 12-də Lerik rayonunun Noda kəndində ziyalı ailəsində doğulub. Orta təhsilini 1999-2010-cu illərdə doğma kəndində Habil Hacıyev adına məktəbdə alıb. 2010-2015-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında bədən tərbiyəsi və idman müəllimi ixtisasına yiyələnib. Ali təhsilinə fasilə verərək, 2011-ci ilin iyul ayından 2013-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin Ağdam rayonunda yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Daxili Qoşunların Ali Hərbi Məktəbində (hazırda Hərbi İnstitut) ideoloji iş və mənəvi-psixoloji təminat şöbəsinin kitabxana rəisi-kitabxanaçısı vəzifəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2021-ci ildən gizir T.Məmmədov komendant taqımı komandirinin müavini vəzifəsində xidmətini layiqincə davam etdirir. Təyin edildiyi vəzifələrdə etimadı doğruldub, rəisləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.

Daxili işlər nazirinin 11.03.2025-ci il tarixli əmri ilə “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalı ilə təltif olunub.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçumuz peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə daim öz üzərində çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir. Tabeliyində olan hərbi qulluqçulara qarşı yüksək tələbkarlıq nümayiş etdirən gizir T.Məmmədov onlara həm də qayğı ilə yanaşır.

**kapitan Şahin Cəfərzadə**

# ƏRZAQ XİDMƏTİ VƏZİFƏLƏRİNİN İCRASINI YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİR

Bildiyimiz kimi, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsində ən başlıca amillərdən biri düzgün və kalorili qidalanmadır. Bu baxımdan hərbi hissələrimizdə fəaliyyət göstərən ərzaq xidmətlərinin üzərinə mühüm tapşırıqlar düşür. Hərbi qulluqçuların qidalanmasında onlara ayrılan ərzaq normalarının dəqiqliklə bölünməsi və işlənməsi mühüm əhəmiyyət kəsb edir.

67987 saylı hərbi hissədə ezamiyyətdə olarkən vəzifələrini uğurla icra edən ərzaq xidmətinin fəaliyyətini işıqlandırmaq istəyimiz heç də təsadüfi olmadı. Öyrəndik ki, xüsusilə fərqlənən ərzaq xidməti aparılan yoxlamalar zamanı qüsursuzluq nümayiş etdirib.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Ramin Məmmədov xidmət rəisi kapitan Şəhriyar Niftəliyevin komandanlıq tərəfindən müsbət xarakterizə olunduğunu nəzərimizə çatdırdı.

16 ildir ki, sıralamızda olan kapitan Ş.Niftəliyev öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının ərzaq xidməti haqqında Əsasnamə”nin tələblərinə uyğun qurduğunu bildirdi. Anbardan ərzaqların buraxılmasını, norma üzrə düzgün bölünməsini və yeməklərin dadlı, keyfiyyətli hazırlanmasını, ayda bir dəfədən az olmayaraq hərbi hissənin anbarlarında ərzaqların və əmlakın miqdarını, keyfiyyətini, yeməkxanalarda maddi vasitələrin və xüsusi geyimlərin vəziyyətini yoxlamaq onun funksional vəzifələridir. O, ərzaqların saxlanılması, emalı, qidanın hazırlanması, qəbulu vaxtı ərzaq anbarında, yeməkxana binasında, soyuducu və qeyri-mexaniki avadanlıqlarda, yeməkxana qab-qacağında sanitar-gigiyena qaydalarının yerinə yetirilməsinə nəzarət edir. Bütün bu sadaladığımız vəzifələri yerinə yetirərkən texniki vasitələrin, soyuducu və texnoloji avadanlıqların istismarı zamanı təhlükəsizlik tədbirlərinə riayət edilməsinə də diqqət yetirir. Hər həftə yeməkxanada qənaət olunan ərzaqların mədaxilinə və uçotunun düzgün aparılmasına cavabdehlik daşıyır, briqadanın tibb xidməti rəisi, yeməkxana rəisi və təlimatçı-aşpazı ilə birlikdə həftəlik ərzaq bölgü cədvəlinin tərtib edilməsində şəxsən iştirak edir.



Kapitan Ş.Niftəliyev hərbi hissədə yeməklərin hazırlanması zamanı hərbi qulluqçuların istəklərinin nəzərə alındığını da qeyd etməyi unutmadı.

Xidmətin düzgün təşkili və aparılmasında kargüzar çavuş Gülnar Kərimlinin zəhmətini xüsusi vurğulayan xidmət rəisi onu savadlı, bacarıqlı və dəqiq hərbçi kimi xarakterizə etdi. Kollektivdə hörmət qazanmış qadın hərbi qulluqçu vəzifələrinin icrası zamanı təşəbbüskarlıq göstərir, verilən tapşırıqları məsuliyyətlə və yüksək səviyyədə icra edir.

**kapitan Nigar Ağayeva**

# MƏSULİYYƏTLİ VƏ SAVADLI KARGÜZAR

Çavuş Nicat Hüseynov 25032 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən çavuş N.Hüseynov komandirlərinin və yoldaşlarının hörmətini, etimadını qazanıb.



O, 1994-cü ilin may ayının 2-də Hacıqabul rayonunda anadan olub. 2001-2010-cu illərdə Hacıqabul rayonunda yerləşən Vidadi Quliyev adına 6 nömrəli tam orta məktəbdə təhsil alıb. 2010-2012-ci illərdə Şirvan Peşə Liseyində elektrik qaz qaynaqçısı ixtisası üzrə peşə təhsili alıb.

2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin Naftalan rayonunda yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2019-cu ildən 25032 saylı hərbi hissənin qərargahının kargüzarı (kargüzarlıq üzrə) vəzifəsinə təyin edilib.

Çavuş N.Hüseynov bildirdi ki, işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında kargüzarlığın aparılmasına dair Qaydalar”ın tələblərinə əsasən təşkil edir. Hərbi hissə komandanlığı tərəfindən bacarıqlı, savadlı, vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə olunur.

Vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuza bundan sonra da xidmətində uğurlar arzu edirik.

**25032 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# CAMAŞIRXANADA SANİTAR-GİGİYENİK QAYDALARA CİDDİ ƏMƏL EDİLİR

99713 saylı hərbi hissənin şəxsi heyətinin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması camaşırxana işçiləri tərəfindən həyata keçirilir. Belə ki, burada bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlar mövcuddur.





Funksional vəzifələrini uğurla icra edən hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Etibar Bəkirzadə camaşırxanada olan avadanlıqların sazlığına, texniki vasitələrdən istifadə zamanı təhlükəsizlik tədbirlərinə və sanitar-gigiyena qaydalarına riayət edilməsinə cavabdehlik daşıyır. Hissə komandanlığı tərəfindən bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur.

Baş çavuş E.Bəkirzadə görülən işlər barədə məlumat verərkən bildirdi ki, hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur, sanitar-gigiyenik qaydalara ciddi əməl edilir. Bu məsələ həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələblərdəndir.

Hərbi qulluqçu tabeliyində çalışan işçi xanımların fəaliyyətindən də söz açdı. Vurğuladı ki, təminat bölüyünün təminat taqımının təminat manqasının xüsusi geyimlərin təmiri və yuyulması üzrə maşinisti vəzifəsində işləyən Gülnarə Şahnəzərova, Ədibə Misirova, Adilə İsmayılova və Xəzəngül Vəliyeva artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalır, işlərini keyfiyyətlə görürlər.

**kapitan Xədicə Hacızadə**

# ZƏHMƏTSEVƏRLİK VƏ İLLƏRİN TƏCRÜBƏSİ

12576 saylı hərbi hissəyə xidməti ezamiyyətimiz zamanı hərbi tibb kontingentinin fəaliyyəti ilə yanaşı, burada çalışan mülki həkimlərimiz haqqında da materiallar hazırlayırıq. Bu dəfə ömrünün yarısını tibb sahəsinə həsr edən mülki həkim Şahin Hüseynov barədə yazmağı qərara aldıq.



Qospitalda sayılıb-seçilən həkimlərdən olan Ş.Hüseynov 1959-cu il avqustun 3-də Ermənistan Respublikasının Zəngibasar rayonunda anadan olub. 1967-1976-cı illərdə Zəngibasar rayonu 102 saylı tam orta məktəbdə təhsil alıb. Təhsilini uğurla başa vuraraq 1977-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırda Azərbaycan Tibb Universiteti) müalicə işi fakültəsinə qəbul olunub. 1983-cü ildə ali təhsilini yekunlaşdıran gənc 1984-cü ilin avqust ayına kimi Xankəndidə internatura kursu keçərək terapevt ixtisasına yiyələnib. Elə həmin ildən Ağdərə rayonunun Talış kəndinin xəstəxanasında baş həkim işləməyə başlayıb. 1988-ci ilə qədər burada çalışsa da, Qarabağda məlum hadisələr zamanı erməni separatçıları tərəfindən işdən çıxarılıb, məcburi köçkünlük faciəsi ilə üzləşib. Ailəsi ilə birlikdə Bakıya köçən həkim 1994-cü ilin noyabrından etibarən Müdafiə Nazirliyinin Hərbi Qospitalında terapiya şöbəsinin rəisi vəzifəsinə təyin olunub. 2007-2015-ci illərdə isə Silahlı Qüvvələrin Baş Klinik Qospitalında baş ordinator kimi xidmətdə olub. 2015-ci ildə tibb xidməti polkovnik-leytenantı hərbi rütbəsində ehtiyata buraxılıb.

2016-cı ildən Daxili Qoşunların Hərbi Qospitalının terapiya şöbəsinin baş ordinator-terapevti işçi vəzifəsində işləyir. Hərbi hissə komandiri və şöbə rəisi tərəfindən müsbət xarakterizə olunur, funksional vəzifələrinin öhdəsindən layiqincə gəlir. O, xəstələrin zəruri müayinə və müalicəsini aparır, onların laborator və instrumental müayinəsi üçün tədbirlər görür, mütəxəssislərin konsultasiyalarında iştirak edir.

Sevdiyi peşəsinə qəlbən bağlı olan, yorulmadan çalışan həkimimiz kollektivdə hörmət qazanıb. Ş.Hüseynovun peşəkarlığı, müsbət şəxsi keyfiyyətləri gənc həkimlərə dəyərli örnəkdir. Ona fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası istefada olan **polkovnik-leytenant Xəqani Qədimovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000